

Avropa Yenidənqurma və İnkişaf Bankı boru kəmərinin inşasına maliyyə dəstəyi ayırmaq barədə qərar qəbul etdi. 2004-cü il fevralın 3-də Bakının "Gülüstan" sarayında Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin nümayəndələri, eləcə də BTC kreditorlar qrupu, kəmərin maliyyələşdirilməsinə dair yekun sənədlər paketini imzaladılar. Tikintisi 2,95 milyard ABŞ dollarına başa gələcək boru kəməri üçün nəzərdə tutulan maliyyələşmə paketi 78 müxtəlif tərəfin 17 mindən artıq imzası olan 208 maliyyə sənədindən ibarət idi. Ümumilikdə, boru kəmərinin doldurulması və tikinti müddətində borcların faizi də daxil olmaqla, layihənin ümumi dəyəri 3,6 milyard dollar həcmində qiymətləndirildi. Bu böyük maliyyə dəstəyi BTC layihəsinin uğurla tamamlanmasına imkan yaratdı və Azərbaycanın enerji strategiyasının reallaşmasında mühüm rol oynadı.

2004-cü ilin oktyabrında BTC-nin Azərbaycan hissəsi Gürcüstan ərazisindən keçən hissəsi ilə birləşdirildi. BTC-nin Gürcüstan hissəsi 2005-ci ilin oktyabrında istifadəyə verildi. BTC boru kəmərinin neftlə doldurulmasına 2005-ci il mayın 10-da başlansa da, xam neft yalnız bir il sonra - 2006-cı il mayın 28-də Ceyhan terminalına çatdı. Boru kəmərinin tam doldurulması üçün təqribən 10 milyon barrel neft tələb olunurdu. Nəhayət, BTC vasitəsilə nəql edilən ilk ixrac nefti 2006-cı il iyunun 4-də tankerə yüklənərək dünya bazarına göndərildi. XXI əsrin ən mühüm enerji layihələrindən biri olan BTC-nin rəsmi açılışı isə 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində baş tutdu. Ümumi uzunluğu 1768 kilometr olan bu strateji boru xəttinin 443 kilometri Azərbaycan, 249 kilometri Gürcüstan, 1076 kilometri isə Türkiyə ərazisindən keçir.

# Avrasiya regionunda icra edilən nəhəng layihə

**Azərbaycanın enerji sektorunun inkişafında inqilabi dönüş yaradan "Əsrin müqaviləsi" 1994-cü ildə imzalandı və ölkəmizin neft strategiyasının əsasını qoydu. Bu tarixi saziş çərçivəsində bir sıra neft və qaz boru kəmərlərinin tikilməsi və istifadəyə verilməsi nəzərdə tutulurdu. Bu layihələr arasında xüsusi əhəmiyyət daşıyan Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri regionun enerji xəritəsini dəyişdirən mühüm infrastruktur layihələrindən biri oldu. BTC-nin reallaşdırılması istiqamətində ilk sənədlər imzalanaraq işçi qruplar yaradıldı.**

Hazırda BTC boru kəməri Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq, Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Aralıq dənizinin sahilində yerləşən Ceyhan terminalına qədər uzanır. Kəmər əsasən Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri-Çıraq-Günəşli yataqlarından hasil edilən nefti və Şahdəniz yatağından çıxarılan kondensatı dünya bazarına nəql edir. Bu boru kəmərinin istismara verilməsi Azərbaycanı beynəlxalq enerji bazarının aparıcı oyunçularından birinə çevirərək ölkəmizin geostrateji mövqeyini daha da gücləndirdi.

Azərbaycanın enerji siyasətində mühüm hadisələrdən biri 29 oktyabr 1998-ci ildə baş verdi. Həmin gün Ankara şəhərində tarixi bir sənəd - Ankara Bəyannaməsi imzalandı. Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Türkiyə Prezidenti Süleyman Dəmirəl və Özbəkistan Prezidenti İslam Kərimov bu bəyannaməyə imza ataraq neft və qaz ehtiyatlarının hasilatı, istehsalı və dünya bazarlarına etibarlı nəqli ilə bağlı strateji əməkdaşlığa dəstək verdilər. Bu mühüm addımdan cəmi bir il sonra, ATƏT-in İstanbul Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan liderlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə dair dövlətlərarası saziş imzalandı. Daha sonra, 18 sentyabr 2002-ci ildə Bakının Səngəçal terminalında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri BTC boru kəmərinin təməlini qoydular. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində neft sektoru yeni inkişaf mərhələsinə qədəm qoydu.

XXI əsrin əvvəllərində Bakı-Tbilisi-Ceyhan boru kəmərinin marşrutunun tikintisinin yarısı artıq başa çatmışdı. Amma layihənin tam başa çatdırılması üçün hələ də böyük maliyyə vəsaitinə ehtiyac var idi. Bu problemi həll etmək məqsədilə 2003-cü ilin noyabrında Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası və

Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycanın enerji sahəsindəki mühüm uğurlarından biridir. Bu enerji dəhlizinin fəaliyyətə başlaması, Azərbaycan neftinin beynəlxalq bazarlara daha geniş miqyasda nəqlinə və çoxşaxəli ixrac strategiyasının həyata keçirilməsinə böyük şərait yaradıb. Bunun sayəsində ölkəmizin tranzit potensialı da əhəmiyyətli dərəcədə artıb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan BTC boru kəməri "Əsrin müqaviləsi" çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunan xam neftin dünya bazarlarına çıxarılması üçün inşa edilmiş müasir nəqliyyat marşrutudur. Bu kəmər 1768 kilometr uzunluğundadır və Azərbaycanın 13 rayonundan keçir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 443 kilometrdir və bu marşrut Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafa rayonlarından keçir. BTC boru kəməri həmçinin Gürcüstanda 7, Türkiyədə isə 9 bölgədən keçir. Bu kəmərin qalan hissəsi, 249 kilometr uzunluğunda Gürcüstan, 1076 kilometr isə Türkiyə ərazisindən keçir. Bu layihə yalnız Azərbaycanın enerji potensialını artırmaqla yanaşı, regional əməkdaşlıq və sabitliyin gücləndirilməsi baxımından da böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, 2024-cü ilin yanvar-sentyabr aylarında Azərbaycandakı magistral neft kəmərləri ilə nəql olunan neft 28 milyon 859,8 min ton təşkil edib. Nəqletmənin 75,1 faizi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri ilə həyata keçirilib və ötən ilin yanvar-sentyabr ayları ərzində bu kəmərlə neft nəqli 21 milyon 681,7 min ton olub. Dövr ərzində BTC kəməri ilə nəql edilmiş neftin 81,5 faizini və ya 17 milyon 676,3 min tonunu Azərbaycanda hasil edilən neft, 18,5 faizini və ya 4005,4 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib.

**Musa BAĞIRLI,**
**"Respublika".**